## Hüquqi yardım üçün müraciət qaydaları

Penitensiar Xidmətin bütün Cəza Çəkmə Müəssisələrində hüquqi yardımın göstərilməsi ilə bağlı məlumatlar yerləşdiriləcəkdir (plakatlar).

Məhkumlar hüquqi yardım almaq üçün müxtəlif vasitələrdən istifadə edə bilərlər.

Məhkumlar:

- Hüquqi yardım almaq üçün Cəza Çəkmə Müəssisəsinin müdiriyyəti vasitəsi ilə Vətəndaşların Əmək Hüquqlarını Müdafiə Liqasına və ya Ədliyyə Naziri yanında İctimai Komitəyə müraciət edə bilərlər;
- Təşkilatın ünvanına yazılı məktub göndərməklə müraciət edə bilərlər;
- Vətəndaşların Əmək Hüquqlarını Müdafiə Liqasına və ya Ədliyyə Naziri yanında İctimai Komitəyə telefonla zəng etməklə müraciət edə bilərlər;
- Müəssisələrdə keçirilən "hüquqi yardım günlərində" birbaşa hüquqşünaslara müraciət etməklə;
- İctimai Komitə üzvlərinin, Milli Preventiv Mexanizm üzvlərinin və digər monitorinq və başçəkmələr həyata keçirən qumların və fərdlərin vasitəsi ilə müraciət edə bilərlər;
- Məhkumlar həmçinin qonum və tanışları vasitəsi ilə elektron poçt və s. kommunikasiyalardan istifadə etməklə hüquqi yardım üçün müraciət edə bilərlər.

Azərbaycan dilini bilməyən əcnəbi və ya vətəndaşlığı olmayan məhkumlar hüquqi yardım alarkən tərcümə xidməti ilə təmin ediləcəkdir.

Bütün hüquqi yardımlar pulsuz həyata keçirilir.

### Hüquqi yardım üçün ünvanlara və digər kommunikasiya vasitələri:

**Vətəndaşların Əmək Hüquqlarını Müdafiə Liqası**

**Ünvan:** Bakı şəhəri, Ə.Hüseynov küçəsi, 1061-ci məhəllə, ev 7, mənzil 347
**Telefonlar:** 530 86 25; mobil: 070 314 49 15
**e-mail:** sahib.mammadov@gmail.com; clrpl@clrpl.az;

**Ədliyyə Naziri yanında Penitensiar Xidmət üzrə İctimai Komitə**

Əliməmməd Nuriyev
**Email:** nuriyevalimammad@gmail.com;
**Ünvan:** Bakı şəhəri, M. Əfəndiyev küçəsi 7/24
**Telefonlar:** 012 492 57 26; 012 555 02 67
**Mobil:** 050 223 29 29

Hüquqi yardımların göstərilməsi
Açıq Cəmiyyət İnstitutu İnsan Hüquqları və İdarəetmə
Qrant Proqramı tərəfindən maliyyələşdirilir.



# HÜQUQİ YARDIMA EHTİYACINIZ VARMI?
# MÜRACİƏT EDİN

**Maddə 61. Hüquqi yardım almaq hüququ**

I. Hər kəsin yüksək keyfiyyətli hüquqi yardım almaq hüququ vardır.
II. Qanunla nəzərdə tutulmuş hallarda hüquqi yardım ödənişsiz, dövlət hesabına göstərilir.
III. Hər bir şəxsin səlahiyyətli dövlət orqanları tərəfindən tutulduğu, həbsə alındığı, cinayət törədilməsində ittiham olunduğu andan müdafiəçinin köməyindən istifadə etmək hüququ vardır.
*Azərbaycan Respublikasının Konstitusiyası*

**Maddə 46. Şərəf və ləyaqətin müdafiəsi hüququ**

I. Hər kəsin öz şərəf və ləyaqətini müdafiə etmək hüququ vardır.
II. Şəxsiyyətin ləyaqəti dövlət tərəfindən qorunur. Heç bir hal şəxsiyyətin ləyaqətinin alçaldılmasına əsas verə bilməz.
III. Heç kəsə işgəncə və əzab verilə bilməz. Heç kəs insan ləyaqətini alçaldan rəftara və ya cəzaya məruz qala bilməz. Özünün könüllü razılığı olmadan heç kəsin üzərində tibbi, elmi və başqa təcrübələr aparıla bilməz.
*Azərbaycan Respublikasının Konstitusiyası*

Cəzaların İcrası Məcəlləsinin 10-cu maddəsində sadalanan məhkumların əsas hüquqları sırasında "hüquqi yardım almaq" da vardır. Eyni zamanda hüquqi yardım almaq hüququ həm də Konstitusion hüquqdur.

Ölkənin cəza sistemində həyata keçirilən islahatların tərkib hissəsi kimi məhkumların hüquqi və psixoloji yardım almaları üçün dövlət tərəfindən zəruri hüquqi hərəkətlər edilmişdir. Cəza Çəkmə Müəssisələrində saxlanılan hər bir məhkum peşəkar vəkil xidmətindən istifadə etmək imkanına malikdir. Maddi təminatı olmayan məhkumlar, zərurət olduqda dövlət tərəfindən ödənişsiz hüquqi yardım ala bilərlər.

Lakin, hazırda Cəza Çəkmə Müəssisələrində hüquqi yardım almağa ehtiyacı olan və buna maddi imkanları olmayan xeyli məhkum vardır.

2006-cı ildən fəaliyyət göstərən Ədliyyə Naziri yanında Penitensiar Xidmət üzrə İctimai Komitədə təmsil olunan Vətəndaşların Əmək Hüquqlarını Müdafiə Liqası bu ehtiyacları nəzərə alaraq 2012-ci ildən başlayaraq Cəza Çəkmə Müəs-sisələrində hüquqi yardım üzrə proqram həyata keçirir.

Vətəndaşların Əmək Hüquqlarını Müdafiə Liqası bu fəaliyyətini Ədliyyə Naziri yanında Penitensiar Xidmət üzrə İctimai Komitə ilə partnyorluq etməklə həyata keçirir. Eyni zamanda təşkilat, həmçinin Ədliyyə Nazirliyi, Ədliyyə Nazirliyinin Penitensiar Xidməti, Milli Preventiv Mexanizmlə də əməkdaşlıq edir.

Məqsəd məhkumların, xüsusən də maddi təminatı olmayan məhkumların, o cümlədən əcnəbi və ya vətəndaşlığı olmayan məhkumların hüquqi yardımlara çıxışını təmin etməklə onların insan hüquq və azadlıqlarını effektiv müdafiə etməkdir.

Vətəndaşların Əmək Hüquqlarını Müdafiə Liqası Ədliyyə Naziri yanında Penitensiar Xidmət üzrə İctimai Komitə ilə birgə Penitensiar Xidmətin bütün cəza çəkmə müəssisələrində aşağıdakı istiqamətlərdə hüquqi yardımlar göstərir:

- **Hüquqi məsləhətlərin verilməsi. Bu zaman məhkumlara hər hansı hüquqi hərəkəti etmək üçün yalnız məsləhət veriləcəkdir.**
- **Məhkumlar üçün tam hüquqi yardımın və vəkil xidmətinin göstərilməsi (məhkəməyə sənədlərin hazırlanması, məhkəmədə pulsuz vəkil xidmətinin təşkili).**
- **Kütləvi hüquqi məlumatlandırma (elanlar, yaddaşlar və s. məlumatlandırıcı vasitələrdən istifadə etməklə, məhkumlarla qrup halda görüşlərdən istifadə etməklə və s. üsullarla)**
- **Hüquqları pozulmuş məhkumlarla bağlı konfedensial hesabatların (mütləq qaydada onların razılığı əsasında) Ədliyyə Nazirliyinə təqdim edilməsi.**

- **Əcnəbi və ya vətəndaşlığı olmayan şəxslərin cəzalarını mənşə ölkəsində çəkmələri üçün zəruri hüquqi (sənədlərin, ərizələrin hazırlanması) və qeyri hüquqi (konsulluqlar, səfirliklərlə təmaslar, məhkumun mənsub olduğu dövlətin müvafiq qurumlarına məktublar və s.) hərəkətlərin həyata keçirilməsi.**

## Hüquqi yardım göstərməyin üsulları

**· Müəssisələrdə hüquqi yardım günlərinin təşkili yolu ilə;**

**· Baş çəkmələr yolu ilə hüquqi yardım almaq istəyənlərin müəyyən edilməsi;**

**· Milli Preventiv Mexanizm üzvlərinə və Ədliyyə Naziri yanında Penitensiar Xidmət üzrə İctimai Komitəyə hüquqi yardım üçün müraciət etmiş şəxslərlə bağlı bu qurumların təqdim etdiyi məlumat əsasında;**